USAID FROM THE AMERICAN PEOPLE

ŞƏFFAFLIQ AZƏRBAYCAN

OSCE Organization for Security and Co-operation in Europe office in Baku

**Əlaqə:**
Samir Əlibəyov
İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis
Tel: (994 12) 418 11 09
Faks: (994 12) 596 20 38
E-mail: samir@transparency.az

***MƏTBUAT ÜÇÜN MƏLUMAT***

# "Şəffaflıq Azərbaycan" təşkilatı tərəfindən keçiriləcək növbəti regional treninq

**17 Yanvar** - "Transparency International" təşkilatının Berlindəki qərargahı və "Şəffaflıq Azərbaycan" təşkilatı tərəfindən 20-24 yanvar 2009-cu il tarixlərində Bakıda Avropa, Mərkəzi Asiya və Sakit okeanı regionu ölkələri üzrə regional treninq təşkil olunacaq. Treninq zamanı Nepal, Pakistan, Vanuatu, Rusiya, Gürcüstan, Monqolustan və sair ölkələrdən olan iş yoldaşlarımız "İctimai Maraqların Qorunması və Hüquqi Məsləhət Mərkəzləri" - in (ALAC) layihəsinin qurulması və iş mexanizmi ilə tanış olacaqdır ki, həmin layihə Şəffaflıq Azərbaycan" təşkilatı tərəfindən Azərbaycan Hökuməti ilə sıx əməkdaşlıq sayəsində 2005-ci ildən uğurla həyata keçirilir.

ALAC layihəsi bir sıra Mərkəzi və Şərqi Avropanın Avropa Birliyinə üzvlüyünə namizəd ölkələrdə uğurla həyata keçirilmişdir. Sözü gedən ölkələrdə bu kimi layihələr böyük rol oynayır və vətəndaşların korrupsiyaya qarşı müqavimətini təmin etməklə dövlətlərin korrupsiyaya qarşı mübarizəsini sürətləndirir.

ALAC layihəsinin məqsədi "Vətəndaşları cəmiyyətdə baş verən korrupsiya halları ilə fəal mübarizəyə cəlb etmək, korrupsiya şahidləri və korrupsiyanın qurbanlarına çevrilən hər bir kəsə pulsuz hüquqi yardım göstərmək və məsləhət verməkdir. Layihə zamanı göstərilən fəaliyyət inzibati və hüquqi şikayət, həmçinin vətəndaşlar tərəfindən qaldırılmış məsələlər nöqteyi-nəzərdən korrupsiya mexanizmlərinin monitorinqi prosedurlarına əsaslanır. Lakin layihə vətəndaşları məhkəmədə təmsil etmir və onların adından və ya onların nümayəndəsi kimi 3-cü şəxslərin qarşısında çıxış etmir.

*2005 ci il Aprel ayının 1-dən etibarən "Transparency İnternational" Təşkilatının Azərbaycan bölməsi olan "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi MDB ölkələri arasında ilk olaraq yeni – "İctimai Maraqların Müdafiəsi və Hüquqi Məsləhət Mərkəzləri" layihəsini həyata keçirir. Layihənin Bakı, Gəncə, Lənkəran, Quba və Şəkidə mərkəzləri mövcuddur. Layihə, ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) və ATƏT-in Bakı ofisinin maliyyə dəstəyi əsasında həyata keçirilir.*

*"Şəffaflıq Azərbaycan" və ALAC layihəsi haqqında əlavə məlumat almaq üçün www.transparency.az internet səhifəsinə müraciət edə bilərsiniz.*